# ELAN

**Azərbaycan Memarlıq və İnşaat Universitetinin 50 illik yubileyinə həsr olunmuş**
“**MÜASİR DÖVRDƏ İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASININ ƏSAS İSTİQAMƏTLƏRİ**” mövzusunda

RESPUBLİKA ELMİ-PRAKTİK KONFRANSI

**Keçirilmə yeri:** Azərbaycan Memarlıq və İnşaat Universiteti
Məqalələrin son təqdimedilmə müddəti: 10.02.2025
Konfrans proqramının göndərilmə tarixi: 19.02.2025
Konfransın keçirilmə tarixi: 21.02.2025

**Konfransın əsas istiqamətləri:**

1. Tikinti sferasında iqtisadi təhlükəsizlik və onun tənzimlənməsi istiqamətləri.
2. İqtisadiyyatın sahələrində rəqəmsallaşmanın müasir vəziyyəti və təhlükəsizlik perspektivləri.
3. İqtisadiyyatın davamlı və dayanıqlı inkişafının təhlükəsizlik strategiyası.
4. İqtisadiyyatın milli təhlükəsizliyinin ümumi problemləri.

**Konfransın işçi dilləri:** *Azərbaycan, Rus, İngilis.*

**Məqalələrin tərtibat qaydaları:**

Məqalə və tezislər 12 Times New Roman şriftlə, 1 intervalla, A4 formatda (bütün tərəflərdən 2.0 sm sahə) məqalələr üçün 3-5 səhifə həcmində, xülasə üçün 8-10 cümlə həcmində, açar sözlər 6-8 termindən ibarət, cədvəllər rəngli qeyd olmadan Word və Excel proqramında cədvəlin üstündə nömrələnməklə, düsturlar 12 şrifti ilə ayrıca obyekt şəklində ardıcıl nömrələnməklə, şəkillər, diaqramlar çox açıq boz rəngdə bir obyekt kimi qeyd olunmaqla qruplaşdırılmış formada olmaqla adları nömrələnməklə, müəlliflərə istinadlar böyük mötərizədə birinci istifadə olunan ədəbiyyatın nömrəsi məs. [2.s.55], nəticələrdə elmi yenilik, praktiki əhəmiyyət və perspektivlər haqqında qeydlər olmaqla elektron formatda qəbul olunur. Məqalə dili azərbaycan və rus dilindədirsə sonda müəllifin adı, soyadı, ata adı, elmi adı, vəzifəsi, məqalənin adı, xülasə və açar sözlər ingilis dilində yazılmalıdır. Məqalə dili ingilis və rus dilindədirsə sonda müəllifin adı, soyadı, ata adı, elmi adı, vəzifəsi, məqalənin adı, xülasə və açar sözlər azərbaycan dilində yazılmalıdır.

Məqalələr antiplagiat proqramı ilə yoxlanılacaqdır.

Konfrans materiallarının toplu halında çap edilməsi ödənişsizdir.

Konfrans materiallarının mətninə görə müəllif məsuliyyət daşıyır.

**Məqalənin strukturu:**

- Mərkəzdə **BOLD (qara)** şriftlə məqalənin müəlliflərinin adı, ata adı, soyadı; (sonda ingilis dilində yazılsın)
- Növbəti sətirdən hər müəllifin elmi adı və vəzifəsi, iş yeri, e-mail ünvanı; ORCID ID (sonda ingilis dilində yazılsın)
- Ortadan böyük hərflərlə **BOLD (qara)** şriftlə məqalənin adı; (məqalə azərbaycan dilindədirsə sonda ingilis dilində)
- İşin xülasəsi (məqalənin yazıldığı dildə, 8-10 cümlə həcmində);
- Növbəti sətrdən açar sözlər (məqalənin yazıldığı dildə, 6-8 söz həcmində);
- Məqalənin əsas mətni;
- Ədəbiyyat siyahısı.

**Məruzələrin təqdim olunması:**

Məqalələrin elektron versiyası **mdes@azmiu.edu.az** email ünvanına təqdim olunmalıdır. Təqdim edilən məqalələr Konfransın mövzusuna uyğun olmadıqda Təşkilat Komitəsi onların qəbulundan imtina edəcək və bu barədə müəllifə yazılı məlumat göndərəcəkdir.

**Əlaqələndirici:**

**Konfransın keçirildiyi ünvan:**AZ1073. Bakı şəhəri. A.Sultanova 5, Azərbaycan və Memarlıq Universiteti

Konfransın təşkilat komissiyası ilə əlaqə:

AzMİU.Sənayenin təşkili və idarə edilməsi kafedrası.

Konfransa məsul şəxs: i.ü.f.d., dos. Ruhəngiz Tofiq qızı Əliyeva

Konfransın elmi katibi: t.e.n., dos. Aydın Xalıq oğlu Nəbiyev

**Konfrans materiallarının təqdim olunması:**

Məqalələrin elektron versiyası **mdes@azmiu.edu.az** e-mail ünvanına təqdim olunmalıdır.

"Sənayenin təşkili və idarə edilməsi" kafedrası.

Telefon: +99412 538 94 57 daxili (6-36). Qərənfil Süleyman qızı Qurbanova<br>Qumru Məmmədşah qızı Şahverdiyeva

***** Məqalənin hazırlanmasına dair nümunə forması**

**MƏQALƏNİN ADI**

**Adı Ata adı Soyadı** *(azərbaycan və rus dilində)*

*Elmi adı, vəzifəsi*

*İş yeri*

***mail adresi***

**ORCID ID**

***Xülasə:*** *Xülasənin mətni (Məqalənin yazıldığı dildə, 8-10 cümlə arası)*

***Açar sözlər:*** *(məqalənin yazıldığı dildə, 6-8 söz)*

**Məqalənin əsas mətni**

**Ədəbiyyat siyahısı**

- İstifadə edilmiş ədəbiyyat siyahısında, əsasən son 10 ildə nəşr edilmiş ədəbiyyatların adı verilsin.
- Əliyeva R.T., Şahverdiyeva Q.M., Azərbaycanda mənzil təsərrüfatının idarə edilməsinin müasir vəziyyəti. Tikintinin iqtisadiyyatı və menecment, Elmi praktiki jurnal N2, s 152-158, 2024 (nümunə)

**MƏQALƏNİN ADI** *(ingilis dilində)*

**Adı Ata adı Soyadı** *(ingilis dilində)*

*Elmi adı, vəzifəsi (ingilis dilində)*

*İş yeri (ingilis dilində)*

***mail adresi***

**ORCID ID**

***Xülasə:*** *Xülasənin mətni (8-10 cümlə arası) (ingilis dilində)*

***Açar sözlər:*** *(6-8 söz, ingilis dilində)*